**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№353/1** **08 fevral 2023-cü il**

# Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən yardımın göstərilməsi məqsədilə operativ qrupun yaradılması barədə

2023-cü il 06 fevral tarixində Türkiyənin cənub-şərqindəki Kahramanmaraş bölgəsində baş vermiş və ölkənin bir sıra yerlərində hiss edilmiş çoxsaylı insan tələfatı, yaralanması və infrastrukturlarının dağıdılması ilə nəticələnən zəlzələ ilə əlaqədar Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən yardımın göstərilməsi məqsədilə Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar Auditorlar Palatası tərəfindən yardımın göstərilməsi məqsədilə aşağıdakı tərkibdə operativ qrup yaradılsın:

Operativ qrup:

Səbuhi Gülməmmədov – Auditorlar Palatasının icraçı direktoru;

Fəqan Qarayev – Auditorlar Palatası sədrinin müşaviri;

Vəli Rəhimov – Auditorlar Palatasının Maliyyə və texniki-təminat idarəsinin rəisi.

2. Operativ qrupa tapşırılsın ki, baş vermiş təbii fəlakətlə əlaqədar Auditorlar Palatası tərəfindən yardımın göstərilməsi və digər zəruri işlərin həyata keçirilməsi təmin edilsin.

3. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**